**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RƏHİMƏXANIM RZABALA QIZI MƏMMƏDZADƏ**

# İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ ÜZRƏ QRAMMATİK ANLAYIŞLARIN MƏNİMSƏDİLMƏSİ ŞAGİRDLƏRİN İDRAK FƏALİYYƏTİNİN MÜHÜM VASİTƏSİ KİMİ

**5801.01-təlim və tərbiyənin nəzəriyyəsi və metodikası**
**(Azərbaycan dilinin tədrisi metodikası)**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı- 2014**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun məktəbəqədər və ibtidai təhsilin nəzəri problemləri şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ənvər Məhəmməd oğlu Abbasov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Rəsmi opponentlər:** **Əzizxan Vəli oğlu Tanrıverdiyev**
*filologiya üzrə elmlər doktoru, professor*

**Çimnaz Həsənəli qızı Məmmədova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan dili və onun tədrisi metodikası kafedrası

Müdafiə "_17_" 06__ 2014-cü ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat " ___" __________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

## Tədqiqatın ümumi səciyyəsi

**Mövzunun aktuallığı.** XXI əsr beynəlxalq miqyasda təhsil əsri elan edilmişdir. Dünyanın hər yerində insanın inkişafı üçün bəyan olunmuş bu humanist tədbirin reallaşdırılması istiqamətində işlər aparılır. Ölkələrin təhsil sistemində islahatlar həyata keçirilir. Müstəqillik qazanmış ölkələrdən biri kimi Azərbaycanda bu islahatlar hələ 1999-cu ildən etibarən başlanmışdır. Ölkədə təhsil sahəsində qəbul olunmuş İslahat Proqramında göstərildiyi kimi, "demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq, təhsil alanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması"[1] mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Bu vəzifənin yerinə yetirilməsi Azərbaycan təhsilini bütün istiqamətlərdə yenidən qurmaqla onu müasir dünyanın ən inkişaf etmiş ölkələrinin təhsil sisteminin səviyyəsinə çatdırmaq və qlobal dünyanın inkişaf sürətinə cavab verməkdən ibarət olmuşdur. Bu, hələ 1999-cu ildə Təhsil sahəsində İslahatlar üzrə Dövlət komissiyasının iclasında ulu öndər Heydər Əliyevin çıxışında da xüsusi olaraq vurğulanmışdır: "İndi bizdə təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın"[2].

Dünyanın təhsil meridianında nədən söhbət gedir? Müasir dünyanın təhsil məkanında aktual olan nədir? Psixoloq və pedaqoqların, dünyanın təhsilşünas alimlərinin fikrincə, cəmiyyət üçün çox önəmli olan təhsil onun inkişafının əsasını təşkil edir. Cəmiyyətin inkişafının atributuna cevrilən mədəniyyət, əsasən, təhsil pilləsində əxz olunur. Ona görə də insanların şəxsiyyət kimi formalaşması önəmli bir missiya kimi təhsilin üzərinə böyük vəzifələr qoyur.

Bu gün şəxsiyyət özünün idrak, hissi və fiziki imkanları ilə daha aydın görünür. Lakin nəzərə almaq lazımdır ki, cəmiyyətin mədəni səviyyəsinin, intellektual potensialının inkişafı üçün idrak fəallığının, təfəkkür prosesinin formalaşması əsas tələblərdəndir. "Müasir təhsil konsepsiyası

---

[1] Azərbaycanın təhsil siyasəti (1998-2004). I kitab. Bakı: Çaşıoğlu, 2005, səh.122-123

[2] Yenə orada, səh.101

ənənəvi didaktik sistemdən fərqli olaraq koqnitiv strukturların inkişafı problemini sadəcə olaraq hafizə məkanında deyil, yeni psixoloji məkanda-təfəkkür və hiss məkanında həll edir”[3]. Bu isə təbii olaraq, təhsil problemlərinin humanist tələblərə uyğun qurulması ilə nəticələnir. Hazırda təhsilin məzmununun, texnologiyalarının, idarə olunmasının, eləcə də digər sahələrinin inkişafında keyfiyyətin əsas meyar olması, nailiyyətlərin ölçülməsində, idarəolunmada ona istinad edilməsi məhz həmin tələblərdən irəli gəlir. Fənlərin təlimində şagirdlərin idrak fəallığının yüksəldilməsi və təfəkkür prosesinin intensivləşdirilməsilə bağlı fəaliyyətlər genişlənir.

Məlum olduğu kimi, idrak fəaliyyəti barədə Y.A.Komenski, J.J.Russo, V.Q.Belinski, N.Q.Çernışevski, N.A.Dobrolyubov kimi mütəfəkkirlər danışmışlar. Sonralar Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzəyev, R.İ.Əliyev öz əsərlərində idrak fəaliyyətinin əhəmiyyəti, mahiyyəti və məzmunu məsələlərini açıqlamış, mülahizələrini daha çox psixoloji yönümdə əsaslandırmışlar. Metodistlərdən A.S.Abdullayev, B.A.Əhmədov, Ə.R.Əfəndizadə, Y.Ş.Kərimov, A.N.Rəhimov, K.Ə.Kərimov və başqaları ana dili tədrisində idrak fəaliyyətinin əhəmiyyəti, onun inkişaf etdirilməsi yolları, müqayisə, təhlil, təkzib, ümumiləşdirmə, konkretləşdirmə və sairdən ibarət təfəkkür prosesi barədə mülahizələrini bildirmişlər. Lakin bu vaxta qədər ibtidai siniflərdə Azərbaycan dili təlimində idrak fəaliyyətinin yüksəldilməsi xüsusi olaraq tədqiqat obyektinə çevrilməmişdir.

Bu gün təhsil islahatının həyata keçirildiyi hazırkı şəraitdə fənlərin məqsəd və vəzifələri, məzmunu dəyişir. Yeni kurikulumlar, məzmun standartları və təlim strategiyaları yaradılır. Artıq ibtidai siniflərin I-IV sinifləri üçün Azərbaycan dili üzrə yeni kurikulumlar tətbiq olunur. Bu prosesdə Azərbaycan dilinin potensial imkanlarından istifadə edərək şagirdlərdə yüksək idrak fəallığı formalaşdırmaq, onlarda təfəkkür bacarıqlarını inkişaf etdirmək əsas vəzifələrdən biri kimi qarşıya qoyulur. İstər Azərbaycan dili üzrə yeni yaradılmış məzmunun təkmilləşdirilməsi, istərsə də hazırlanmış yeni strategiyaların reallaşdırılması imkanlarının öyrənilməsi, bütövlükdə ibtidai siniflərdə Azərbaycan dili təlimi sisteminin yeni məzmunda tətbiqi, idrak fəallığının yüksəldilməsi baxımından tədqiq olunması aktuallıq kəsb edir.

I-IV siniflərdə Azərbaycan dili kurikulumunun tətbiqi zamanı şagirdlərə yönəlmiş məzmun standartları ilə işləmək zərurəti meydana çıxır.

---

[3] Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Psixopedaqoji araşdırmalar. Bakı: Adiloğlu, 2001, səh.59

Məktəb təcrübəsinin təhlili göstərir ki, illərdən bəri I-IV siniflərdə dərs deyən müəllimlər əksər hallarda Azərbaycan dili dərslərində daha çox şagirdlərə qrammatik biliklər verməyə, onu linqvistik çalışmalarla möhkəmləndirməyə üstün yer ayırmışlar. Ona görə də şagirdlər daha çox qrammatikaya aid deklorativ bilikləri nümayiş etdirməklə fərqlənmişlər. Danışma, oxu, yazı bacarıqları ilə müqayisədə onların qrammatik anlayışlara dair bilikləri çox üstünlük təşkil etmişdir. İdrak fəaliyyəti ilə bağlı bacarıqların inkişaf etdirilməsi sahəsində görüləcək işlərə isə, demək olar ki, sistemsiz yanaşılmışdır. Əksər hallarda idrak fəaliyyəti ilə bağlı bacarıqların inkişaf etdirilməsinin texnologiyası açıqlanmadığından müəllimlərin fəaliyyət dairəsindən kənarda qalmışdır. Müəllimlərlə aparılan sorğuların nəticəsi də bu fikirlərin doğruluğunu təsdiqləmişdir.

Doğrudur, son dövrlərdə respublikada həyata keçirilən təhsil islahatları ilə əlaqədar olaraq məktəblərin, eləcə də müəllimlərin fəaliyyətində dəyişikliklər yaranmışdır. Xüsusən də bu dəyişikliklər ibtidai sinif müəllimlərinin fəaliyyətində daha çox hiss olunmaqdadır. Şagirdlərin təfəkkür fəallığını təmin etmək üçün Azərbaycan dili dərslərində qrammatik materiallardan istifadə edən müəllimlərimiz vardır. Onlar yeni təlim standartları və strategiyalarına əsaslanmaqla, şəxsi qənaətləri və təşəbbüsləri əsasında xeyli təcrübə toplamışlar. Belə müəllimlərin təcrübələrini öyrənməklə onların işindəki elmi-metodik mahiyyət, əldə olunmuş nəticələr baxımından strateji xətt, istiqamət dəyərləndirilməlidir.

Əksər müəllimlər isə işlərini ənənəvi təlim prinsiplərinə istinad etməklə qururlar. Müasir pedaqoji texnologiyalardan xəbərsizdirlər. Yalnız qrammatik anlayışların öyrənilməsi ilə kifayətlənir, əsas nəticələri mahiyyət etibar ilə bunda görürlər. Bu da, təbii ki, müəllimlərin Azərbayan dili dərslərində şagirdlərin təfəkkür bacarıqlarının formalaşdırılması ilə bağlı peşəkarlığının aşağı səviyyədə olmasını göstərir.

Beləliklə, bütün bunlar ibtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsi vasitəsilə şagirdlərdə idrak fəaliyyətinin yüksəldilməsinin tədqiqat obyektinə çevrilməsini, onun araşdırılmasını əsaslandırır.

**Tədqiqatın obyekti** ibtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsi prosesidir.

**Tədqiqatın predmetini** ibtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsinin şagirdlərin idrak fəaliyyətinin mühüm vasitəsi olması təşkil edir.

**Tədqiqatın məqsədi** ibtidai siniflərdə şagirdlərin idrak fəaliyyətinin mühüm vasitəsi kimi Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsinin imkan və yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Problem baxımından ümumi məsələlər araşdırılarsa, şagirdlərin idrak fəallığını yüksəltmək məqsədilə zəruri olan qrammatik anlayışların seçilməsi prinsipləri konkretləşərsə, fonetik, morfoloji və sintaktik anlayışlardan istifadə etməklə idrak fəaliyyətinin yüksəldilməsinin məzmunu öyrənilərsə, ibtidai siniflərdə şagirdlərin idrak fəaliyyətini mühüm vasitəsi kimi Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsinin imkan və yollarını müəyyənləşdirmək mümkün olar.

**Tədqiqatın vəzifələri:**

1. Azərbaycan dili təlimində idrak fəaliyyəti anlayışının mahiyyətini və məzmununu müəyyənləşdirmək.
2. Problemin psixoloji, pedaqoji ədəbiyyatda qoyuluşunu öyrənmək.
3. Problem baxımından proqram və dərslikləri təhlil etmək.
4. Problem baxımından məktəb təcrübəsindəki vəziyyətə aydınlıq gətirmək.
5. Şagirdlərin idrak fəallığını yüksəltmək məqsədilə zəruri olan qrammatik anlayışların seçilməsi prinsiplərini müəyyənləşdirmək.
6. Qrammatik anlayışlardan istifadə etməklə şagirdlərin idrak fəaliyyətini yüksəltməyin imkan və yollarını müəyyən etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt və hadisələri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq edilən prinsiplərin, metodların, vasitələrin və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqat metodları:** müşahidə, müsahibə, məktəb sənədlərinin öyrənilməsi, anket sorğusu, pedaqoji eksperiment.

**Tədqiqatın elmi yeniliyi.** İbtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsinə idrak fəaliyyətinin mühüm vasitəsi kimi yanaşılması və onun tədqiqata cəlb olunması, ilk növbədə, ibtidai siniflərdə Azərbaycan dili tədrisi metodikasını, xüsusən qrammatikanın öyrədilməsi məsələlərini təkmilləşdirəcək, bütövlükdə Azərbaycan dili tədrisinin psixoloji əsaslarının zənginləşdirilməsinə töhfə verəcəkdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** İdrak fəaliyyətinin mühüm vasitəsi kimi ibtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsədilməsi ilə bağlı irəli sürülmüş və əsaslandırılmış müddəalar nəinki Azərbaycan dili təlimi metodikasının, eləcə də dillərin inkişaf etdirilməsi baxımından əhəmiyyət daşıyır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatlardan alınan nəticələr aşağıdakı istiqamətlərdə tətbiq olunmaqla praktik əhəmiyyət daşıyır:

- ibtidai siniflərdə Azərbaycan dili fənninin məzmununun (məzmun standartlarının, strategiyaların və dərsliklərin) yeniləşdirilməsində;
- ibtidai siniflərdə Azərbaycan dili təlimi prosesinin təkmilləşdirilməsində;
- ibtidai siniflərdə Azərbaycan dili tədrisi metodikasının təkmilləşdirilməsində;
- ilkin müəllim hazırlığında "Ana dili tədrisi metodikası" kursunun məzmununun təkmilləşdirilməsində;
- ibtidai sinif müəllimlərinin ixtisasartırma kurslarının məzmununun təkmilləşdirilməsində;
- yeni kurikulumlarla işləyən müəllimlər üçün resursların hazırlanmasında.

**Müdafiəyə aşağıdakı müddəalar təqdim olunur:**

1.Problemlə bağlı ümumi məsələlərin öyrənilməsi ibtidai siniflərdə Azərbaycan dili üzrə qrammatik anlayışların mənimsənilməsi zamanı şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsi üzrə nailiyyətləri aydın təsəvvür etməyə imkan yaradır.

2. Zəruri qrammatik anlayışların seçilməsi prinsiplərinin müəyyənləşdirilməsi ibtidai siniflərdə Azərbaycan dili təlimi prosesində şagirdlərin idrak fəaliyyəti üzrə aparılacaq işin didaktik əsasını təşkil edir.

3. Fonetik, morfoloji və sintaktik anlayışların mənimsədilməsi şagirdlərin idrak fəaliyyətini stimullaşdırır, onun inkişafını təmin edir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.**

Tədqiqatın nəticələri iddiaçının Bakı Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutunda təşkil olunmuş ibtidai sinif müəllimlərinin kurslarında müəllimlərə çatdırılmışdır. Eyni zamanda Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun aspirant və dissertantlar üçün təşkil etdiyi konfransda, eləcə də Qafqaz Universitetinin təşkil etdiyi Beynəlxalq konfransda məruzə şəklində müzakirəyə verilmişdir.

Dissertasiyanın nəticələri ilə bağlı 5 jurnal məqaləsi, (o cümlədən biri xaricdə) və 3 tezis çap olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 8 yarımfəsli birləşdirən 2 fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## Tədqiqatın əsas məzmunu

**Girişdə** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, nəzəri müddəaları, tətbiqi şərh olunur.

Disseryasiyanın **"Tədqiqatın ümumi məsələləri"** adlı birinci fəsli problemlə bağlı ümumi məsələlərin araşdırılmasına həsr olunmuşdur. Bu fəsil özü də üç yarımfəslə bölünmüşdür.

*"İdrak fəallığının yüksəldilməsi Azərbaycan dili təlimində mühüm problem kimi"* adlı birinci yarımfəsildə uşaqların təlim prosesinə cəlb olunmasında motivasiyanın oynadığı roldan danışılır. Qabiliyyətli uşaqların bir çoxunun motivasiya çatışmazlığı ucbatından yaxşı oxumadığı, ümumiyyətlə, şagirdlərin müəyyən qisminin məktəbə gəlsələr də, diqqətlərinin dərsdən yayındığı, nəticədə təlim-tərbiyə prosesində problemlərin yarandığı qeyd olunur.

Azərbaycan dili təlimində idrak fəaliyyətinin inkişaf etdirilməsi üzrə araşdırmaların məqsədəuyğun aparılmasının təmin olunması üçün onun pedaqoji-psixoloji xüsusiyyətlərinin şərhi diqqət mərkəzində saxlanılır. İdrakın insana xas olan bir keyfiyyət kimi onun hərəkət istiqamətlərini müəyyənləşdirdiyi, ibtidai təhsil səviyyəsində onun inkişaf etdirilməsinin zərurəti, cəmiyyətimizin bu günü və gələcək inkişafı üçün əhəmiyyətli bir hadisə olması əsaslandırılır.

Tədiqiqatda koqnitiv təhsilin müasir məktəbimizdə tədris olunan hər bir fənnin ümumtəhsil vəzifələrindən biri olması, xüsusən Azərbaycan dili təlimində onun özünəməxsus əhəmiyyət daşıması şərh edilir. Dil və təfəkkür anlayışları, onlar arasında əlaqələr, bu əlaqələrin təlim prosesində nəzərə alınmasının xüsusi didaktik əhəmiyyətə malik olmasından və dilin inkişaf etdirilməsində təfəkkür fəaliyyətinin əvəzsiz rolundan bəhs olunur, mühüm nəzəri problemlədən biri kimi onların mahiyyəti araşdırılır. Bu zaman dilçi-metodist alimlərin bir qrupunun A.A.Ladijenski, Y.Ş.Kərimov və A.N.Rəhimovun bu problemlə bağlı münasibətləri barədə ümumiləşdirilmələr aparılır, dil və təfəkkürün qarşılıqlı əlaqədə olması, onların bir-birinə təkan verməsi, dəstək olması barədə nəticələrə gəlinir. Həm də belə bir qənaət hasil olunur ki, bu məsələnin şərhində dünya dilçilərinin fikri yekdildir. Onların fikirinə görə, dillə təfəkkürün əlaqəsi qarşılıqlıdır. Bu qarşılıqlı əlaqə prosesində onlar bir-birlərini stimullaşdırır. "Ana dili şa-

girdlərin məntiqi təfəkkürünün inkişafını və idrak fəaliyyətinin fəallığını təmin edir”[4]

Bu yarımfəsildə qeyd olunur ki, ana dilini sevmək, onu dərindən öyrənmək, qayğısına qalmaq, ünsiyyət karyerasına gətirmək, ən başlıcası, daim həyatın mütəhərrik bir formasına çevirmək vacib tələbdir. Yığıncaqlarda, konfranslarda və seminarlarda onu müzakirə mədəniyyətinin mərkəzinə gətirmək arzu və düşüncələrini eşitmək dilimizin inkişafı baxımından xüsusi maraq daşıyır. Ona görə də Azərbaycan dili təlimində ona münasibətin formalaşdırılması zəruri hesab edilir, eyni zamanda onun şüurlu xarakter daşıması mühüm amil kimi diqqət mərkəzində saxlanılır. Şüurluluğun formalaşmasında dilin xüsusi rolunun olması göstərilir.

Bu yarımfəsildə şüur və təfəkkür anlayışlarına da münasibət bildirilir. Onların əlaqəli psixoloji anlayışlar kimi özünəməxsus cəhətlərindən də danışılır. Şüurun insanın malik olduğu biliklərin məcmusu olması göstərilir. Azərbaycan dili təlim zamanı bu iki anlayışın qarşılıqlı fəaliyyəti obyektiv reallığın daha tez qavranılmasını, biliklər formasında mənimsədilməsini təmin edir. Belə bir prosesdə dil vasitəçi kimi çıxış edir. Bu vasitəçilik missiyası aşağıdakı istiqamətlərdə həyata keşirilir. Birinci, informasiya mənbələri kimi dil vahidləri mənimsənilir. Onlar Azərbaycan dilinin anlayışlar sistemindən ibarət olan elə materiallardır ki, ardıcıl şəkildə öyrənilməklə şagirdin Azərbaycan dilinin linqvistik xüsusiyyətləri ilə bağlı parametrləri əhatə edir. Bu zaman yalnız qayda, prinsip və s. ibarət olan materiallar deyil, həm də müəyyən qaydalar, eləcə də bütöv bir fəaliyyət sistemi ilə əlaqədar bacarıqlar əhatə edirlir.

İkinci halda, Azərbaycan dili vasitəçi rolunda çıxış etməklə digər fənlərə aid materialların öyrənilməsində fəal iştirak edir. Müxtəlif anlayışlar ana dilinin imkanlarına əsaslanmaqla, onun vahidlər sistemindən istifadə olunmaqla mənimsənilir.

Bu yarımfəsildə Azərbaycanda təhsil islahatlarının həyata keçirilməsindən və təhsil sisteminin qurulmasından bəhs olunur. Qeyd edilir ki, yeni sistem bilavasitə şəxsiyyətin formalaşdırılmasına yönəlmişdir. Belə bir sistemin məqsəd və vəzifələrində idrak, hissi emosional, psixomotor (fiziki) bacarıqların inkişaf etdirilməsi mühüm şərt kimi tələb olunur. Bütün bunların yerinə yetirilməsi üçün isə ayrı-ayrı fənlərin qarşısına məqsədlər qoyulur, müvafiq nəticələrin reallaşdırılması nəzərdə tutulur. İbtidai siniflərdə Azərbaycan dili fənni üçün də bu baxımdan xüsusi məqsəd müəy-

[4] Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, səh. 6

yənləşdirilir. Ana dili fənn kurikulumunda qeyd olunur ki, "uşaqların məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq, istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını və inkişafını təmin etmək"[5] ibtidai təhsilin son məqsədlərindən biridir. Bu məqsədin həyata keçirilməsi üçün digər fənlərlə yanaşı, Azərbaycan dilinin də üzərinə mühüm vəzifələr düşür.

Bu yarımfəsildə ana dili kurikulumlarının məqsədindən çıxış edərək ana dili təlimində idrak fəaliyyətini inkişaf etdirmək üçün iki istiqamətdə imkanın olduğu göstərilir. Həmin imkanlardan birincisi, ana dili təlimi məzmununun müəyyənləşməsi, ikincisi isə ana dili təlimi strategiyalarının reallaşdırılması prosesidir. Nəticədə belə bir qənaət hasil olur ki, ibtidai siniflərdə tədris olunan ana dili şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılması məqsədini daşıyır. Bu məqsədə çatmaq üçün ana dilini bilavasitə düşünmə, öyrənmə, danışma vasitəsinə çevirmək mühüm vəzifə kimi tələb olunur. Onun yerinə yetirilməsi zamanı ana dili ilə təfəkkür arasında qarşılıqlı əlaqə yaranır. Bu əlaqə prosesində dil təfəkkürün inkişaf etdirilməsi vasitəsi kimi çıxış edir.

Birinci fəslin ikinci yarımfəsli *"Problem baxımından pedaqoji, psixoloji ədəbiyyatın təhlili"* adlanır. Yarımfəsildə idrak fəaliyyəti müxtəlif yanaşmalarda təhlilə cəlb olunur. İlk növbədə Y.A.Komenski, J.J.Russo, V.Q.Belinski, N.Q.Çernışevski, N.A.Dobrolyubov və b. adı şəkilir, sonra assosiativ psixologiyanın, Vyusburq məktəbinin, geştal psixoloqların və psixoloq-bioxevioristlərin idrak fəaliyyətinə münasibətləri açıqlanır. Onların münasibətlərindəki birtərəflilik təhlil olunur. Araşdırmalar onu göstərir ki, yanaşmalar müxtəlifdir. İnsanın təfəkkür aləmi haqqında düşüncələr birmənalı deyil. Belə ki, bəzən daxili həyatın, idrakın, düşüncənin zənginliyi hərəkətin miqdarı ilə izah edilir (L.S.Viqotski). Mürəkkəb, canlı sistemlərin davranışı onların fəaliyyətinin daxili qanunauyğunluqlarından asılı olur (B.Ş.Ukraintsev), insan fəaliyyəti subyektin obyekt üzərində xarici əməliyyat aparması deyil, subyektin obyektə kecididir (S.L.Rubinşteyn), duyğuların yaranmasında effektli fəal təsir vacibdir (A.N.Leontyev, V.P.Zinçenko), şagirdlərin idrak fəaliyyəti praktik fəaliyyətin törəməsidir (P.Y.Qalperin), təlimalanın reksiyalarının xarakteri yalnız stimulla deyil, həm də diqqət, təfəkkür və sairlə müəyyən olunur (B.F.Skinner), müşahidə olunanlar müşahidə oluna bilməyənlər haqqında biliklərin mənbəyidir

[5] Ümumtəhsil məktəblərinin I-IV siniflər üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, səh.14

(L.N.Landa), hərəkətin icrasına qədər baş beyində bu hərəkətin qiymətləndirmə aparatı formalaşır (P.K.Anoxin) və s.

Göründüyü kimi, bütün yanaşmalarda idrakın fəallaşdırılması mexanizmlərinə müxtəlif mövqelərdən qiymət verilməsi müşahidə olunur. Lakin problem baxımından məsələnin qoyuluşu müşahidə edilmir. Qrammatik materiallardan idrak fəallığının yüksəldilməsi vasitəsi kimi danışılmır. Əslində vəziyyətin belə olması apardığımız araşdırmanın nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Ümumiyyətlə, təlimə sadəcə səmərəliliyin artırılması prosesi kimi deyil, təfəkkür fəallığının yüksəldilməsi vasitəsi kimi baxılmalı, bu proses bilavasitə şagirdlərin əqli qabiliyyətlərinin yüksəldilməsinə yönəldilməlidir.

*"Problem baxımından proqram və dərsliklərin təhlili"* adlı üçüncü yarımfəsildə ibtidai təhsil üzrə Azərbaycan dilinə dair proqram və dərsliklər tədqiqata cəlb olunur. İlkin olaraq proqramlardan danışılır. Həm ənənəvi, həm də 2006-cı ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" sənədinə əsasən 2007-ci ildə hazırlanaraq məktəblərin istifadəsinə verilmiş I-IV siniflər üçün yeni ana dili kurikulumları təhlil olunur.

Ənənəvi proqramlardan danışılarkən onun ciddi bir sənəd olduğu əsaslandırılır, bu sahədə alimlərin fikirlərinə istinad olunmaqla inkişafetdirici xüsusiyyət kəsb etməsi bildirilir: "Proqrama şagirdlərin məntiqi təfəkkürünü hərəkətə gətirən, onların fikri fəaliyyətini gücləndirən materiallar daxil edilməlidir. Hər bir material şagirdləri əşya və hadisələr, nitq faktları üzərində müşahidə, müqayisəetmə, tutuşdurma, mücərrədləşdirmə, ümumiləşdirmə aparmağa, əqli nəticəyə gəlməyə vadar etməlidir" (Y.Ş.Kərimov).

Proqramın təhlili zamanı məlum olur ki, onun məzmununda materiallar iki qismə ayrılır. Birinci qisimdən olan materiallar bilavasitə tədris olunacaq materialların təsvirinə həsr edilir. İkinci qisim materiallar isə konkret sinif üzrə şagirdlərin mənimsəyəcəkləri nitqlə bağlı bilik və bacarıqları əhatə edir. Həmin bacarıqlar idrak fəallığını yüksəltmək baxımından nəzərdən keçirilmiş, vəziyyət aşağıdakı cədvəldəki kimi olmuşdur.

**Proqramdakı bacarıqların nisbəti**

**Cədvəl 1.**

| Siniflər | Şagirdlərin ümumi say | Bacarıqların sayı | | İdrak fəaliyyəti üzrə |
|---|---|---|---|---|
| | | O cümlədən | | |
| | | Oxu üzrə | Azərbaycan dili üzrə | |
| I | 22 | 8 | 14 | 4 |
| II | 34 | 14 | 20 | 7 |
| III | 20 | 7 | 13 | 6 |
| IV | 16 | 8 | 8 | 1 |
| Cəmi | 92 | 37 | 55 | 18 |

Cədvəldən göründüyü kimi, təhlil aparılarkən 1 sinifdə 14 bacarıqdan 4-ü (20%), II sinifdə 20 bacarıqdan 7-i (35%), III sinifdə 13 bacarıqdan 6-ı (47%) və IV sinifdə 8 bacarıqdan 1-i (12.5%) idrak xarakterli olmuşdur. Eyni zamanda həmin bacarıqlardan təfəkkür fəaliyyətinin yalnız müəyyən etmə, seçmə, ayırma, fərqləndirmə və təhlil etmə kimi növlərinin əhatə olunduğu meydana çıxarılmışdır.

Bu yarımfəsildə I-IV siniflər üçün yeni ana dili fənn kurikulumları, xüsusən onun məzmununu əhatə edən hissəsinə münasibət bildirilir. İlk növbədə, yeni təhsil sənədi kimi onun özünəməxsusluğu, məzmun və strukturu ilə bağlı xarakterik cəhətlər, əsas və alt-standartların əhatə etdiyi məsələlər araşdırılmışdır. Alt-standartlar nəzərdən keçirilərək hissi və məntiqi idrakın formalaşdırılması istiqamətində qruplaşdırılmış və aşağıdakı cədvəl formasında ümumiləşdirilmişdir.

**Ana dilinə aid təlim nəticələrində idrak bacarıqlarının əhatə olunması**

Cədvəl 2

| Siniflər | Nəticələrin sayı | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Hissi idraka aid | % | Məntiqi idraka aid | % |
| I | 35 | 22 | 63 | 13 | 37 |
| II | 28 | 20 | 71 | 8 | 28 |
| III | 26 | 15 | 57 | 11 | 42 |
| IV | 30 | 12 | 40 | 18 | 60 |
| Cəm | 119 | 69 | 58 | 50 | 42 |

Cədvəldən göründüyü kimi, hissi və məntiqi idrakın formalaşmasına yönəlmiş nəticələrdə hissi idraka aid olanların qismən üstün olduğu müəyyən edilmişdir.

Bu yarımfəsildə dərsliklərdəki çalışmaların əhatə dairəsi və onların idrak fəaliyyətini yüksəltmək baxımından imkanları öyrənilmiş, nəticələr aşağıda verilmiş cədvəldəki kimi olmuşdur.

**İdrak fəaliyyətini yüksəltmək baxımından dərsliklərin imkanları**

Cədvəl 3

| Siniflər | Bilmə | Anlama | Tətbiq etmə | Təhlil etmə | Sintez etmə | Dəyərləndirmə | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| Ana dili üzrə iş dəftəri(I sinif) [27] | 75 | 27 | 66 | 39 | 9 | 3 | 219 |
| Azərbaycan dili (II sinif üçün) [44] | 106 | 48 | 22 | 78 | 6 | 11 | 271 |
| Azərbaycan dili (III sinif üçün) [58] | 54 | 37 | 106 | 95 | 20 | 11 | 323 |
| Azərbaycan dili (IV sinif üçün) [74] | 35 | 10 | 373 | 147 | 18 | 16 | 599 |
| Cəmi | 270 | 122 | 567 | 359 | 53 | 41 | 1412 |

Göründüyü kimi, cədvəldə idraki bacarıqların formalaşdırılmasına xeyli yer ayrılmışdır. Hissi idrakla müqayisədə məntiqi idrakın inkişaf etdirilməsi üçün verilmiş çalışmalar təfəkkür fəallığını təmin etmək baxımından yetərli deyildir.

Birinci fəslin dördüncü yarımfəsli *"Məktəb təcrübəsində vəziyyətin təhlili"* adlanır Bu yarımfəsildə tədqiqatın aparıldığı təhsil şəraitinin durumu aşağıdakı məzmunda müəyyənləşdirilir:

1.Azərbaycanda təhsil islahatları aparılır. Ümumi təhsil sistemində dəyişikliklər gedir. Artıq yeni kurikulumlar hazırlanır. Müasir təhsil standartları, texnologiyalar, qiymətləndirmə mexanizmləri tətbiq olunur.

2. Müəllimlər pedaqoji təcrübədə yeniliklərlə rastlaşır, yaradıcı olurlar. Məhdud dairədə olan təlim vasitələrinin yerini doldurmaq üçün fərdi qaydada nümunələr hazırlayırlar.

3. Şəxsiyyətyönümlü təhsilin mühüm cəhəti kimi dəyərlərin formalaşdırılması, şagirdlərin bu baxımdan qiymətləndirilməsi müəllimlərdən yeni bacarıqlar, səriştələr tələb edir. Müəllimlərin bu keyfiyyətlərə yiyələnmələri zəruri vəzifələrdən biri kimi öz həllini gözləyir.

4. Yeni məzmun, texnologiya və qiymətləndirmə, eyni zamanda yeni idarəolunma sisteminin formalaşmasını tələb edir. Belə bir sistemin formalaşması fənlərin, o cümlədən də Azərbaycan dilinin, onun qrammatik anlayışlarının daha intensiv təlim olunmasına, şagirdlərin idrak fəallığına imkan yarada bilər.

Yarımfəsildə problem baxımından məktəb təcrübəsinin aşağıdakı istiqamətlərdə öyrənilməsindən bəhs olunur.

1. Şagirdlərin qrammatik anlayışlarla bağlı idrak fəallığının vəziyyətinin öyrənilməsi.
2. Problemlə bağlı müşahidə olunmuş dərslərin təhlili.
3. Müəllimlərlə problemə dair keçirilmiş sorğunun nəticələrinin təhlili.

Birinci istiqamət üzrə aparılmış təhlil zamanı belə məlum olur ki, şagirdlər müəyyən anlayışlar haqqında bilikləri ifadə etməkdə, onların müxtəlif xüsusiyyətlərini təqdim etməkdə daha fəal olduqlarını büruzə verirlər. Lakin müqayisələr aparmaqda, analitik fikir söyləməkdə çətinlik çəkirlər. Bu, onların bilavasitə təfəkkür fəallığı sahəsində bacarıqlarının kifayət qədər olmaması ilə əlaqədardır.

Problemlə bağlı dərslərin təhlili göstərdi ki, müəllimlər təlim prosesini struktur cəhətdən yeniləşdirməyə çalışsalar da, şagirdlərin məntiqi və yaradıcı təfəkkürünün inkişafına zəif diqqət yetirirlər. Onların dərslərində süni dekorasiyalar, şagirdlərin hər hansı fəallığını nümayiş etdirmək meyli üstünlük təşkil edir. Şagirdlərin inkişafının dinamikasını izləmək unudulur.

Müəllimlərlə problemə dair sorğunun nəticələrinin təhlili isə göstərmişdir ki, onların idrak fəalliyyəti barədə anlayışları çox zəifdir. Müəllimlərin çox az qismi qrammatik materiallar vasitəsilə idrak fəaliyyətini inkişaf etdirmək, qrammatikanın imkanlarını müəyyənləşdirmək, xüsusi çalışma və tapşırıq növlərindən istifadə etmək haqqında düşünür. Onların əksəriyyətinin bu məsələlər barədə məlumatı həddindən artıq məhduddur.

**"Qrammatik anlayışları mənimsətməklə ibtidai sinif şagirdlərinin idrak fəaliyyətinin yüksəldilməsi"** adlı ikinci fəsil dörd yarımfəsildən ibarətdir. *"Şagirdlərin fəallığını yüksəltmək məqsədilə zəruri qrammatik anlayışların seçilməsi prinsipləri"* adlı birinci yarımfəsildə mahiyyət etibarilə problem baxımından zəruri qrammatik anlayışların seçilməsinin

didaktik əsaslarından söhbət açılır. Həmin prinsiplərin aşağıdakı məzmunda müəyyənləşdirilməsi məqsədəmüvafiq hesab edilir:

1) idrak marağının gücləndirilməsi;
2) idrak müstəqilliyinin təmin olunması;
3) fikri əməliyyatların təşkili;
4) təfəkkürün növlərinin formalaşdırılması.

Bu yarımfəsildə hər bir prinsipin mahiyyəti acıqlanır, mülahizələr elmi-nəzəri cəhətdən əsaslandırılır.

*"Fonetik anlayışlardan istifadə etməklə idrak fəalliyyətinin yüksəldilməsi"* adlı yarımfəsildə fonetikanın mahiyyəti və qrammatik anlayış kimi nəzərə alınması zərurətindən bəhs olunur, idrak fəaliyyətinin yüksəldilməsi məqsədilə istifadə olunacaq fonetik anlayışlardan danışılır. Fonetik anlayışlara istinad etməklə şagirdlərin idrak fəaliyyətini yüksəltmək üçün aşağıdakı fəaliyyət formalarından istifadə olunması məqsədəuyğun hesab edilir:

1. Yeni fonetik anlayışların mahiyyətinin mənimsənilməsi üzərində iş.
2. Fonetik çalışma və tapşırıqlar üzərində müstəqil işin təşkili.
3. Fonetikaya dair materialların toplanması və nəticələrin təqdim edilməsi.
4. Fonetik təhlilin aparılması və nəticələrin qiymətləndirilməsi

Yarımfəsildə hər bir fəaliyyət formasının mahiyyəti şərh olunur, irəli sürülmüş metodik müddəalar təcrübə və ekspiriment nümunələrindən istifadə olunmaqla əsaslandırılır. Nəticədə belə bir qənaət hasil edilir ki, ibtidai siniflərdə fonetik anlayışların spiralvari xətt üzrə sadədən mürəkkəbə prinsipi əsasında ana dili kursunun məzmununa daxil edilməsi mühüm didaktik əhəmiyyət daşıyır və şagirdlərin idrak fəallığının yüksəldilməsi üçün imkan yaradır. Zəruri fonetik anlayışları mənimsətmək, fonetik çalışmalar üzərində müstəqil işi təşkil etmək, fonetikaya dair materialları toplamaq və bu barədə nəticələri tədqim etmək, fonetik təhlillərin nəticələrini qiymətləndirmək istiqamətində iş aparmaqla həmin imkanları reallaşdırmaq mümkündür.

*"İdrak fəaliyyətinin yüksəldilməsində morfoloji anlayışlardan istifadə"* adlı yarımfəsildə morfologiya anlayışına münasibət bildirilməklə ibtidai siniflərdə onun dil qaydaları formasında öyrədilməsi zərurəti əsaslandırılır. Ilk növbədə, təhsildə humanist və inteqrativ prinsiplərə uyğun olaraq təlim materiallarını həyati bacarıqların inkişaf etdirilməsinə, onları lüzumsuz, artıq yükdən azad etmək; ikincisi, şagirdləri ən zəruri morfoloji materiallar üzərində daha çox işlətmək, düşünmək imkanı yaratmaq həmin əsaslandırmanın mahiyyəti kimi təqdim olunur. I-IV siniflər üçün ana dili stan-

dartlarında morfoloji anlayışlar əks olunduğu hissələr seçilib qruplaşdırılmaqla xüsusi cədvəl formasında təqdim olunur. Bununla idrak fəaliyyətinin yüksəldilməsi baxımından morfoloji anlayışların imkanları konkretləşdirilir. İbtidai siniflərdə tədris olunan morfoloji anlayışların inteqrativ xarakter daşıdığı, öz məzmununda leksika, orfoepiya, orfoqrafiya ilə bağlı elementləri də ümumiləşdirdiyi, semantikasına, məna tutumuna görə dilçilik elmindəki morfologiya anlayışı ilə eyniyyət təşkil etmədiyi göstərilir.

İdrak fəaliyyətini yüksəltmək məqsədilə morfoloji materiallardan istifadə işinin aşağıdakı istiqamətləri müəyyənləşdirilir.

1. Morfoloji anlayışların mənimsənilməsi.

2. Morfoloji çalışmalar üzərində iş.

3. Morfoloji təhlil.

Qeyd olunan istiqamətlər üzrə təhlil və tərkib, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə, sistemləşdirmə və ya təsnifat kimi fikri əməliyyatlardan istifadə olunmaqla idrak fəaliyyətinin yüksəldilməsinə nail olmağın mümkünlüyü təcrübə və eksperiment materialları ilə əsaslandırılır.

*"İdrak fəaliyyətinin yüksəldilməsində sintaktik anlayışlara istinad edilməsi"* adlı yarımfəslində sintaktik anlayışların şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsində əhəmiyyəti xüsusi qeyd olunur. Təhlil, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə və təsnif etmək sintaksisə dair anlayışların mənimsədilməsində istifadə olunan mühüm metodik müddəa kimi təqdim edilir və əsaslandırılır. Yarımfəsildə I-IV siniflərdə sintaktik anlayışlarla bağlı təlim nəticələri seçilərək qruplaşdırılır, idrak fəallığının yüksəldilməsində əhəmiyyət daşıyan didaktik imkanlar kimi təqdim olunur. Aşağıdakı ardıcıllıqla müəyyən olunmuş metodik yanaşma tərzi nəzəri və praktik cəhətdən əsaslandırılır.

1. Sintaksisə dair materiallar müəyyənləşdirilərkən onların idrak fəallığına xidmət edəcəyi əvvəlcədən nəzərə alınmalı, təfəkkür fəaliyyəti ilə bağlı əhəmiyyəti diqqət mərkəzində saxlanılmalıdır.

2. Dərsin təşkili zamanı fəal təlim üçün müəyyən olunmuş tələblər gözlənilməlidir.

3. Görüləcək işlər planlaşdırılmalıdır.

Bu yarımfəsildə sintaktik anlayışların mənimsənilməsinin idrak fəaliyyətinin yüksəldilməsinə təsirini müəyyənləşdirmək məqsədilə Bakı şəhəri Elitar gimnaziya və Göyçay şəhər 1 nömrəli məktəbin ibtidai siniflərində keçirilmiş yoxlayıcı eksperimentdən bəhs olunur. Bildirilir ki, bu eksperiment zamanı şagirdlərin sintaktik vahidlər olan söz birləşməsi, cümlə, eləcə də cümlə üzvlərinə aid təhlil, müqayisə, konkretləşdirmə və digər bacarıq-

ların inkişaf səviyyəsini müəyyənləşdirmək qarşıya məqsəd kimi qoyulur. Eksperiment siniflərinə hazırlanmış metodika təqdim olunur. Yoxlama sinfi ümumi şəkildə təlimatlandırılmaqla istiqamətləndirilir. Onun nəticələri cədvəl şəklində ümumiləşdirilərək təhlil edilir.

Avtoreferatda nümunə olaraq yalnız III-IV siniflərin cədvəli təqdim olunur.

**Sintaktik anlayışların idrak fəaliyyətinin yüksəldilməsinə təsiri**

Cədvəl 4

| Siniflər | Şagirdlərin sayı | Fikri əməliyyatların növləri üzrə mənimsəmə | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Təhlil üzrə | | Müqayisə üzrə | | Konkretləşdirmə üzrə | |
| | | Şagirdlərin sayı | Faizlə | Şagirdlərin sayı | Faizlə | Şagirdlərin sayı | Faizlə |
| **Bakı şəhər Elitar gimnaziya** | | | | | | | |
| $III^a$ (eksperimental) | 33 | 31 | 93% | 32 | 96,9% | 30 | 90,9% |
| $IV^a$ (eksperimental) | 31 | 29 | 93,5% | 27 | 87% | 26 | 83,87% |
| $III^b$ (kontrol) | 30 | 26 | 86,66% | 25 | 83,33% | 24 | 80% |
| $IV^b$ (kontrol) | 29 | 26 | 89,65% | 24 | 82,75% | 23 | 79,31% |
| **Göyçay şəhəri 1 nömrəli məktəb** | | | | | | | |
| $III^a$ (eksperimental) | 27 | 25 | 92,59% | 26 | 96,29% | 24 | 88,88% |
| $IV^a$ (eksperimental) | 25 | 23 | 92% | 24 | 96% | 22 | 88% |
| $III^b$ (kontrol) | 26 | 23 | 88,46% | 24 | 92,03% | 21 | 80,76% |
| $IV^b$ (kontrol) | 25 | 21 | 84% | 22 | 88% | 20 | 80% |

Göründüyü kimi, şagirdlərə sintaksisə dair ilkin bacarıqlar aşılanarsa, onların fikri əməliyyatlarını daha yaxşı inkişaf etdirmək və bununla idrak fəaliyyətinin yüksəldilməsini təmin etmək mümkün olur. Nəticədə yoxlama siniflərlə müqayisədə eksperiment siniflərdə şagirdlər daha çevik təhlillər edir, müqayisələr aparır, dil vahidlərinin seçilib istifadə olunmasında konkretlik nümayiş etdirirlər.

Yarımfəsildə belə bir nəticəyə gəlinir ki, Azərbaycan dili üzrə sintaktik anlayışların təlimində müasir yanaşmalardan istifadə etməklə, sintaksisə

dair materiallar üzərində iş aparmaqla şagirdlərin təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, sistemləşdirmə bacarıqları inkişaf edir.

Tədqiqat zamanı aşağıdakı **nəticələrə** gəlinmişdir:

1. Ana dili təlimi üzrə tədqiqatlarda nitq inkişafı onun başlıca məqsədlərindən biri olmuşdur. Araşdırmalarda, normativ sənədlərdə, Azərbaycan dilinin tədrisinə dair hazırlanmış metodik sənədlərdə bu məsələ aydınlığı ilə vurğulanmışdır. O da həqiqətdir ki, dilin mənimsənilməsi, nitqin inkişaf etdirilməsi öz növbəsində onunla sıx əlaqədar olan idrak fəallığı ilə, təfəkkürlə bağlıdır. Başqa sözlə, dil təfəkkürün ifadəçisi kimi çıxış edir. Hər kəs dilində, nitqində təfəkkürünü ifadə edir. Ona görə Azərbaycan dili təlimində təfəkkürə istinad etmək, onun inkişafına nail olmaq xüsusi əhəmiyyət daşıyır. Təhsilin müasir mərhələsində bu daha çox aktuallıq kəsb edir. İbtidai siniflərdə Azərbaycan dili təliminin düşünmə, öyrənmə, danışma vasitəsi kimi yeni məqsədə xidmət etməsi onun idrak fəallığını inkişaf etdirmək baxımından geniş imkanlara malik olduğunu aydın şəkildə göstərir. Bu isə, öz növbəsində idrak fəallığının yüksəldilməsini ibtidai siniflərdə Azərbaycan dili təliminin mühüm problemlərindən biri kimi qarşıya qoyur.

2. Ənənəvi proqramların, yeni kurikulumların təhlili göstərmişdir ki, şagirdlərə qrammatik bilik və bacarıqlar verilməklə yanaşı, onların nitqini inkişaf etdirmək üçün imkanların yaradılması diqqətdən yayınmamışdır. İdrakın inkişaf etdirilməsi barədə məqsəd və vəzifələrdə xüsusi qeydlər verilmişdir. Şagirdlərin ümumi inkişafını, idrak fəallığını izləməyə imkan verən nəticələr yalnız son dövrlərdə hazırlanmış kurikulumlarda öz ifadəsini tapmışdır. Hesablamalar göstərir ki, ana dilinə aid siniflər üzrə verilmiş 119 təlim nəticəsindən 69-u hissi idrakın, 50-i isə məntiqi idrakın formalaşdırılmasına yönəldilmişdir. Beləliklə, kəmiyyət etibarı ilə əyani, obrazlı və tətbiqi təfəkkürlə əlaqədar bacarıqlara üstünlük verilmişdir. Məntiqi və yaradıcı təfəkkürlə bağlı nəticlərə qismən az yer ayrılmışdır.

Dərsliklərin təhlili onların məzmununa iki cür yanaşmanın mövcud olduğunu göstərir. Ənənəvi dərsliklərdə linqvistik çalışmalar üstünlük təşkil edir. Yeni dərsliklərdə məntiqi çalışmalara üstün yer ayrılmasına ehtiyac duyulur.

3. İdrak fəlsəfi, psixoloji, pedaqoji və metodik problem kimi alimlərin diqqət mərkəzində dayanmışdır. İdrak fəaliyyətinin pedaqoji və metodik ədəbiyyatlarda şərh olunmasına təşəbbüs göstərilmişdir. Daha çox psixopedaqoji problem kimi idrak fəaliyyətinin strukturu, istiqamətləri, idrak marağının vasitələri üzrə nəzəri istiqamətdə araşdırmalar aparılmışdır. Ana

dilinin tədrisi metodikasında idrak fəaliyyətinin əhəmiyyəti, qrammatikanın tədrisi prosesində istifadə olunan metodlarla bağlı fikirlər söylənilmişdir. Lakin ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi prosesində şagirdlərin idrak fəalığının yüksəldilməsi xüsusi tədqiqat obyektinə çevrilməmişdir.

4. Məktəb təcrübəsində vəziyyətin təhlili göstərir ki, şagirdlər qrammatika haqqında biliklərini istifadə etməkdə, onların linqivistik xüsusiyyətlərini izah etməkdə, eləcə də qrammatik materialları tətbiq etməkdə fəallıq göstərirlər. Lakin bu anlayışlarla bağlı müqayisələr, faktlar üzrə ümumiləşdirmə, konkretləşdirmə və sistemləşdirmələr aparmaqda, ümumiyyətlə, analitik fikir söyləməkdə çətinlik çəkirlər. I-IV siniflərdə Azərbaycan dili prosesində aparılan işlər daha çox deklarativ biliklərin ümumiləşdirilməsinə, müvafiq qrammatik anlayışların qavranılmasına, şagirdlərin əyani-obrazlı, əyani sözlü, əməli təfəkkürünün formalaşmasına yönəldilir. Məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi baxımından irəliləyişlər nəzərə çarpmır. Ümumiyyətlə, müəllimlərin qrammatik materiallar vasitəsilə təfəkkür prosesini inkişaf etdirmək, idrak fəallığını yüksəltmək baxımından qrammatikanın imkanlarını müəyyənləşdirmək, xüsusi çalışma və tapşırıqlar hazırlamaqla bağlı bilik və bacarıqları, tədris fəaliyyətlərini keyfiyyətli qurmağa imkan vermir.

5. Şagirdlərin idrak fəallığının yüksəldilməsində qrammatik materialların mənimsədilməsi xüsusi rola malikdir. Tədqiqat zamanı məlum olmuşdur ki, bu işi keyfiyyətlə yerinə yetirmək aşağıdakı prinsiplərdən istifadə etməklə mümkündür:

- qrammatik anlayışların mənimsədilməsi prosesində idrak marağının gücləndirilməsi;
- qrammatik analyışların təlimi prosesində idrak müstəqilliyinin gücləndirilməsi;
- qrammatik anlayışların mənimsədilməsi prosesində fikri əməliyyatların sürətləndirilməsi;
- təfəkkürün növləri, formaları üzrə bacarıqların formalaşdırılması baxımından qrammatik materialların əhəmiyyətliliyinin nəzər alınması;

6. İbtidai siniflərdə fonetik anlayışların sadədən mürəkkəbə doğru, spiralvari xətt üzrə öyrədilməsi mühüm didaktik əhəmiyyət daşıyır və şagirdlərin idrak fəallığının yüksəldilməsi baxımından geniş imkanlara malikdir. Araşdırmalar göstərir ki, zəruri fonetik çalışmaların yerinə yetirilməsi, ümumiləşdirmə, konkretləşdirmə, müqayisə, sistemləşdirmə və s. fikri əməliyyatalardan istifadə etmək, fonetik materialları toplamaq, bu barədə

nəticələri təqdim etmək və fonetik təhlillərin nəticələrini qiymətləndirməklə həmin imkanları reallaşdırmaq mümkündür.

7. Aqlünativ dil kimi Azərbaycan dilinin özünəməxsusluğu, sözlərdə şəkilçilərin özünəməxsus düzülüşü, oradakı mənalı hissələr üzərində müqayisə, təhlil, ümumiləşdirmə, konkretləşdirmə, qruplaşdırma aparmağa imkan verir. Tədqiqat zamanı belə məlum olmuşdur ki, məntiqi və yaradıcı təfəkkür çalışmalarından istifadə morfoloji anlayışların mənimsənilməsi ilə nəticələnir.

8. Azərbaycan dili üzrə sintaktik anlayışların təlimində müasir yanaşmalardan istifadə etməklə sintaksisə dair məlumatlar üzərində iş apardıqda şagirdlərin təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə, sistemləşdirmə bacarıqları inkişaf edir. Onlar təlim materialları üzərində daha çevik təfəkkür əməliyyatları aparmaq imkanı qazanırlar.

Tədqiqatın məzmunu, başlıca elmi ideyaları və nəticələri aşağıdakı çap işlərində öz əksini tapmışdır:

1.Pedaqoji prosesdə şagirdlərin təfəkkürünü inkişaf etdirməyin yolları / "Təhsilin islahatları və pedaqogikanın müasir problemləri" mövzusunda elmi konfransın materialları. Bakı, 2000, s. 87-89

2.Ana dili təlimi idraki fəaliyyətinin hərəkətverici qüvvəsi kimi / Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2007, № 2-3 s. 84-86

3.İbtidai siniflərdə Azərbaycan dilindən qrammatik materialların öyrədilməsi imkanları / Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2008, № 1 s.86-91

4.Возможности повышения умственной деятельност в программах родного языка начальных классов / Научно-технический журнал, Воронеж, Технологии и методики в образовании, 2010, № 2 s.21-27

5.Azərbaycan dili dərslərində şagirdlərin idrak marağına təsir edən amillər / Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı Tezislər, 2010, s.344-345

6.İdraki fəaliyyətin yüksəldilməsində ana dili təliminin rolu / Azərbaycan təhsili yeni inkişaf mərhələsində mövzusunda Respublika elmi-praktik konfransın materialları, Bakı 2010 s.201-206

7. İbtidai siniflərin Azərbaycan dili fənn kurikulumlarında morfoloji anlayışların verilməsi ardıcıllığı / "Təhsil kurikulumları: nəzəri problemlər" mövzusunda Respublika elmi konfransının materialları. Bakı, 2014, s.24-26

8. Azərbaycan dili dərslərində şagirdlərin idrak marağının gücləndirilməsi. Pedaqoji Universitet Xəbərləri. 2014, №2, s.48-53

9. İbtidai siniflərdə Azərbaycan dili dərslərində şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsində sintaktik anlayışlara istinad edilməsi // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2014, № 1 s. 89-95

10. Şagirdlərin idrak fəaliyyətinin yüksəldilməsində qrammatik anlayışların mənimsədilməsi probleminin pedaqoji –psixoloji ədəbiyyatda qoyuluşu // Gəncə Dövlət Universiteti. Elmi Xəbərlər. 2014, № 2 s. 33-39

Р.Р.Мамедзаде

# Усвоение грамматических понятий по азербайджанскому языку в начальных классах как важное средство познавательной деятельности учащихся

## РЕЗЮМЕ

Во введении обоснована актуальность темы исследования. Определены обьект, предмет, цели и задачи, методы, основные положения, выносимые на защиту, научная новизна, теретическая и практическая значимость работы.

В первой главе диссертации названием «Общие проблемы исследования» рассматриваются такие важные вопросы, как проблемность преподавания родного языка относительно повышения позновательной деятельности. С позиции проблемы дается анализ педагогической, психологической литературы, одноврименно программ и учебников. В главе в центр внимания вносится роль мотивации в привитии учащимся склонности к процессу обучения. Для целенаправленного рассмотрения вопроса развития познавательной деятельности учащихся в переподавании родного языка определены их психолого-педагогические особенности. В главе, исходя из целей куррикулума родного языка, указываются на два направления в развития познавательной деятельности в переподавании родного языка. Первый из етих возможностей является определение содержания обучения русскому родному языку, второе – связоно со стратегией преподавания языка.

Вторая глава диссертации называется «Повышения позновательной активности учащихся начальных классов в усвоении грамматических понятий». Данная глава диссертации состоит из четырех параграфов. В отдельных параграфах главы речь идет о принципах отбора необходимых понятий, повышении познавательной деятельности с использованием фонетических понятий в повышении позновательной активности; использование морфологических понятий в повышении познавательной деятельности; опора на статические понятия в повышении познавательной деятельности.

R.R.Mamedzade

# MASTERING OF GRAMMATICAL MATERIALS ON THE AZERBAIJAN LANGUAGE IN INITIAL CLASSES AS MEANS OF INCREASE COGNITIVE ACTIVITY OF PUPILS

## THE RESUME

In introduction the urgency of a theme of research is proved. The purposes and problems, methods, the substantive provisions which are taken out on protection, scientific novelty, the theoretical and the practical importance of work are defined обьект, a subject.

In chapter 1 of the dissertation the name «General problems of research» considers such important questions, as problematical character of teaching of the native language concerning increase cognitive activity. From a problem position the analysis of the pedagogical, psychological literature, programs and textbooks is given. In the head the motivation role is brought in the attention centre in inculcation by the pupil of propensity to training process. For purposeful consideration of a question of development of informative activity of pupils in teaching the native language their psihologo-pedagogical features are defined. In the head, proceeding from the purposes curriculum the native language, are specified in two directions in developments of informative activity in teaching the native language. The first of ethic possibilities is definition of the maintenance of training to the Russian native language, the second - connetcting with strategy of teaching of language.

The second chapter of the dissertation is called «Increases cognitive activity of pupils of initial classes in mastering of grammatical concepts». The given chapter of the dissertation consists of four paragraphs. In separate paragraphs of the head it is a question of principles of selection of necessary concepts, increase of informative activity with use of phonetic concepts of increase cognitive activity; use of morphological concepts of increase of informative activity; a support on static concepts of increase of informative activity.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**РАГИМАХАНЫМ РЗАБАЛА кызы МАМЕДЗАДЕ**

# УСВОЕНИЕ ГРАММАТИЧЕСКИХ ПОНЯТИЙ ПО АЗЕРБАЙДЖАНСКОМУ ЯЗЫКУ В НАЧАЛЬНЫХ КЛАССАХ КАК ВАЖНОЕ СРЕДСТВО ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧАЩИХСЯ

**5801.01 – Теория и методика обучения и воспитания – методика преподавания азербайджанского языка**

**A V T O R E F E R A T**

**диссертации на соискание научной степени доктора философии по педагогике**

**БАКУ - 2014**